## Vüsalə NAMƏTOVA, YAP Qəbələ Rayon Təşkilatı gənclər birliyinin üzvü

**Hörmətli konfrans iştirakçıları!**

Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin mühüm bir hissəsi yaradıcısı və sədri olduğu Yeni Azərbaycan Partiyası ilə sıx şəkildə bağlıdır. Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində yaranmışdır.

YAP Azərbaycan cəmiyyətinin aparıcı siyasi qüvvəsidir. Partiya həm region siyasi partiyaları, o cümlədən dünyanın aparıcı siyasi partiyaları ilə sıx əməkdaşlıq edir. Azərbaycan cəmiyyətində möhkəm və sarsılmaz dayaqları olan YAP ümummilli lider Heydər Əliyevin ideyalarının daşıyıcısı kimi bu gün dövlətimizin daha da qüdrətlənməsinə xidmət edir. Ümummilli lider Heydər Əliyev siyasətinin ən layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz günü-gündən öz iqtisadi-siyasi qüdrətini artırır.

Cəmiyyətin fəal üzvləri olan gənclər də bu siyasətdən faydalanırlar. Bu siyasət gənclərin daha keyfiyyətli müasir təhsil almasına, fiziki sağlamlığının və sosial müdafiəsinin güclənməsinə yönəlmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsipləri əsasında Azərbaycan xalqının tarixi mədəni irsinə, milli mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətimizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında gənclərin fəal iştirakını təmin edir. Azərbaycan gənci təkcə ölkəmizdə deyil, həm də onun hüdudlarından kənarda ən müasir ali məktəblərdə təhsil almaq imkanı əldə etmişdir. Belə gənclərin əksəriyyəti məhz dövlətin maliyyə imkanları



hesabına təhsil alır, yüksək ixtisaslara yiyələnirlər.

Azərbaycanda çox sayda idman obyektlərinin tikilib gənclərin istifadəsinə verilməsi də gənclərin fiziki inkişafına və sağlamlığına istiqamətlənmiş siyasətdir. Hər il dünyanın müxtəlif yerlərində keçirilən mötəbər idman turnirlərində Azərbaycan bayrağını yüksəyə qaldıran gənclərimizin sayı durmadan artır.

Biz gənclər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdən məmnunuq. Bu məmnunluğun səbəbi həyata keçirilən siyasətin ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun davamı olması, Azərbaycana sabitlik və davamlı inkişaf bəxş etməsi, Azərbaycanın regionda və dünyada söz sahibinə çevrilməsi, Azərbaycan gəncliyinin və gələcəyinin inkişafını təmin etməsidir. Ona görə də Azərbaycan gənclərinin tam əksəriyyəti bu siyasətin arxasındadır və onu müdafiə edir. Azərbaycan gəncliyi müstəqillik tariximizin bütün dövrlərində müxtəlif sınaqlardan alnıaçıq çıxmağı bacarmış və doğru qərar qəbul etmişdir.

Mən həm öz adımdan, həm də Qəbələ gəncləri adından deyə bilərəm ki, biz artıq bu ilin oktyabr ayında keçiriləcək Prezident seçkilərində öz seçimimizi etmişik. Azərbaycan istiqlaliyyətinin, dövlətçiliyinin gücləndirilməsi, vətənimizin daha da çiçəklənməsi naminə üzərimizə düşən vətəndaş məsuliyyətini dərk edirik. Elə ona görə də ölkəmizdə 2013-cü ilin oktyabr ayında keçiriləcək prezident seçkilərində gənclərin hamisi və dostu cənab İlham Əliyevi dəstəklədiyimizi, hər zaman onun yanında olduğumuzu yüksək qürur hissi ilə bəyan edirəm.

İnanıram ki, Azərbaycan gəncliyi cənab İlham Əliyevin ətrafında sıx birləşərək, ona səs verməklə öz gələcəyinə səs verəcəkdir!

# Şərqdə ilk demokratik respublika

XX əsrdə Azərbaycan xalqı iki dəfə azadlığa qovuşub. Birinci dəfə 1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycanda müstəqil dövlətin—Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı elan olundu. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud olmuşdur.1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti bu qısa müddətdə çox işlər həyata keçirməyə nail oldu. Belə ki, öz milli dövlətçiliyinə qovuşmuş Azərbaycan xalqı azadlığın nə demək olduğunu gördü. Azərbaycan Xalq Cümhuriyyətinin vətənpərvər oğulları bütün siyasi səylərini birləşdirərək milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdilər. Hər şeydən əvvəl onlar Milli Şurada «İstiqlal Bəyannaməsi» qəbul etdilər. Bu Bəyannamədə Azərbaycan Xalq Cümhuriyyətinin həm daxili, həm də xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bəyan etdilər. «Bəyannamədə» elan edilmiş əsas prinsiplər çox mühüm tarixi əhəmiyyət kəsb edirdi. Bu mühüm sənəddə qeyd edilmişdir ki, Azərbaycan xalqı öz müqəddəratını təyin etmək, insanların hüquq bərabərliyinə, bütün xarici dövlətlərlə, eyni zamanda qonşu ölkələrlə dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə hörmətlə yanaşmaq prinsiplərinə malikdir.

Tarixin ən parlaq hüquqi sənədi olan «İstiqlal Bəyannaməsi» bütün türk-müsəlman dünyasında, Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik idarə üsulunun—parlamentli respublikanın yarandığını xəbər verirdi. Beləliklə, çox mürəkkəb bir tarix şəraitdə Azərbaycanın şimal torpaqlarında milli dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi. Lakin yeni ayaq tutan gənc Azərbaycan dövləti son dərəcə mərəkkəb bir şəraitlə üzləşmişdi.

Bakıda hakimiyyəti S. Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik qüruhu ələ keçirmiş və Azərbaycan türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımına başlamışdı. Rus imperiyası tərəfindən təpədən-dırnağadək silahlanmış bədnam qonşumuz erməni quldur dəstələri türk-müsəlman əhalisinə qarşı qanlı cinayəti davam etdirirdilər. Artıq Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasında rəqabət son həddə çatmış və yeni təhlükə-bolşevik Rusiyasının da təcavüzü yaxınlaşmışdı. Xalqımız ağır yolayrıcında qalmışdı: ya milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın etnik-siyasi xərmitəsindən tamamilə silinib götürülmək, Cümhuriyyət xadimləri belə bir ağır və çətin tarixi şəraitdə çaşqın vəziyyətə və çıxış yolu tapa bilməyən xalqın önünə keçdilər.

Sovet Rusiyasının beynəlxalq hüquq normalarını tapdalayan hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Çox az ömürlü olmasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti sübüt etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

Ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycanda başlanmış milli-azadlıq hərəkatı bolşevik rejiminin süqutunu yaxınlaşdırdı. Xalqın təkidli tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası dövlətin adını dəyişdirərək Azərbaycan Respublikası adlandırdı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı bu respublikanın da dövlət bayrağı kimi təsdiq olundu. Həmin ilin mayın 21-də verilmiş xüsusi fərmanla 28 May Respublika Günü elan edildi.

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik haqqında Konstitusiya aktını qəbul etdikdən sonra formal olaraq Azərbaycan Respublikası müstəqil dövlət kimi dünya dövlətləri və BMT tərəfindən tanındı. Lakin o zaman Azərbaycanda elə ictimai siyasi proseslər gedirdi ki, onu müstəqil dövlət hesab etmək çətin idi.

Təsadüfi adamların yüksək postlara təyin olunması Azərbaycanda anarxiya və özbaşınalıq mühiti yaratdı. Yalnız ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının istək və arzusu ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan sözün həqiqi mənasında ölkədə baş alıb gedən xaos və özbaşınalıqdan, parçalanmaq təhlükəsindən, dövlət müstəqilliyini və torpaqlarını tamamilə itirməkdən xilas oldu. Ona görə də Azərbaycan xalqı haqlı olaraq ona xilaskar adını verdi.

**Aslan CƏLİLOV.**

# Azərbaycan xalqının yüksək mənəviyyatı hər şeydən ucadır

Respublikamızın hər yerində olduğu kimi Qəbələ rayonunda da 28 May—Respublika Günü qeyd olundu. Uzun bir dövr Azərbaycan Rusiyanın müstəmləkəsi olub. Ancaq Azərbaycan xalqı həmişə azadlığa, müstəqilliyə qovuşmaq üçün mübarizələr aparıb.

XX əsr tarixə yalnız elm, texnika əsri kimi yox, həm də milli oyanış, xalqların müstəmləkəçilikdən azad olmaları və milli dövlətlərin yaranması əsri kimi də daxil olub.

Azərbaycan Xalq Cümhuriyyəti təkcə Azərbaycanda deyil, bütün Şərqdə ilk demokratik respublika idi. Bu Respublika parlamentli dövlət idi. Onun dövlət atributları—bayrağı, himni, gerbi qəbul edildi. Üç rəngli bayrağında türkçülük, islamçılıq və avropalaşmaq bir vəhdətdə idi. Ancaq Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşaya bildi. 1920-ci il aprelin 28-də bolşeviklərin 11-ci ordusu Azərbaycanı işğal etdilər və Respublika süqut etdi.

Respublika Günü—dövlət müstəqilliyimizin bərpası günü hazırda dövlət bayramı kimi qeyd olunur. Müstəqilliyini bərpa etdikdən sonra bu bayram hər il ölkəmizdə böyük təntənə ilə qeyd edilir. Keçirilən tədbirlərdə Cümhuriyyət dövrünə bir daha nəzər salınır, onun tariximizdəki yeri və rolu ətraflı təhlil edilir, dövlət quruculuğu təcrübəsi hərtərəfli öyrənilir.

**(Ardı 7-ci səhifədə).**